# *PEDAQOJİ ELMLƏR*

## Təhsilin keyfiyyətinin artırılmasında humanist təhsil siyasəti

**Nuranə Natiq qızı Əliyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Bakı Dövlət Universiteti*
**E-mail:** Aliyevanurana0@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. R.L. Hüseynzadə,
p.ü.e.d., prof. L.N. Qasımova

**Açar sözlər:** təhsil, müstəqillik, təlim, humanizm, öyrədən, öyrənən, tələb, islahat
**Ключевые слова:** образование, независимость, учение, гуманизм, учитель, ученик, реформа требование
**Key words:** education, independent, training, humanism, teacher, learner, reform, requirement

Dünyadakı digər canlılardan fərqli olaraq, insan təhsil almağa ehtiyac duyan yeganə varlıqdır. O yalnız təhsil vasitəsiylə insanlaşa və yüksək mənəvi- əxlaqi dəyərlərə sahib ola bilər. Alman filosofu İmmanuel Kantın dediyi kimi, "İnsanoğlunun mükəmməl təbiətinin böyük sirri təhsilin arxasında dayanır. İnsan təbiətinin yalnız təhsil vasitəsilə daha yüksək bir səviyyəyə çatacağı və bəşəriyyətin xeyrinə istifadə edilə bilən bir formaya çevriləcəyi fikrini düşünmək belə insanı məmnun etmək üçün kifayətdir. Bu vəziyyət gələcəkdə daha xoşbəxt və firavan yaşayan insan nəslinin üstünlük təşkil etməsi üçün qapı açır."

Hazırda dünya təhsil sistemində insan və onun daxili hissi, düşüncəsi, davranışı, ehtiyac və tələbatı mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan təhsil sistemində "humanizm" anlayışının əsas yer tutması aktual məsələlərdən biridir. Humanizm intibah dövründən ortaya atılmış, insanın mənliyini, hissini, dəyərini, marağını əsas məqsəd hesab edən bir doktrinadır. Təhsildə humanizm anlayışını isə Amerika psixoloqları Abraham Maslou və Karl Rocersin irəli sürdüyü söylənməkdədir. Hətta A. Maslounu humanist psixologiyanın mənəvi atası adlandırırlar. Maslou qeyd edirdi ki, insanı xeyirxahlıq, qayğı və sərbəstlik ab-havası ilə əhatə edəndə, biz ona özünün məhəbbətə, təhlükəsizliyə və hörmətə olan tələbatını ifadə etmək üçün şərait yaradırıq. Maslou sonra əlavə edirdi ki, "Seçmə sərbəstliyi ən müxtəlif situasiyalarda, məsələn, azyaşlı cinayətkar uşaqlar üçün internatda onlara özləri üçün otaq qonşusu seçməyə icazə verdikdə və ya kolleclərdə tələbələrə müstəqil surətdə özləri üçün tədris planı tərtib etmək və onlara dərs deyəcək müəllimləri seçmək imkanı verildikdə səmərəli nəticə alına bilər və şəxsiyyətin özünü təsdiq etməsində mühüm rol oynayar." A. Maslou kimi K. Rocers də öyrənənə öz həqiqi istək və arzularına, fikir və ideyalarına uyğun hərəkət öyrətməyi məsləhət görürdü. Onun fikirlərində insana inam da mühüm rol oynayır. Rocers qeyd edirdi, "İnsana ən qiymətli hədiyyə onun emosional vəziyyətini dinləmək, hörmətlə yanaşmaq və öz yerini tapmaqda kömək etməkdir."

Karl Rocersə görə, təlim bir-birinin əksi olan iki növə bölünür. Biri ənənəvi avtoritar təlim, digəri isə humanist təlimdir. Birinci təlimdə öyrənən qaydalara əməl etməli, səhv buraxmamalı və yaxşı qiymət almağa çalışmalıdır. Humanist təlimdə isə öyrənənə inam, hörmət və

məhəbbət bəslənir və onların maraq və qabiliyyətləri nəzərə alınır.

Araşdırmalara əsasən, bu iki növü bir-biriylə müqayisə etdikdə görürük ki, təlimin səmərə və keyfiyyətinin artırılması, öyrənənin bir şəxsiyyət kimi formalaşdırılması və inkişaf etdirilməsi üçün təhsilin humanistləşdirilməsi ümdə məsələlərdən biridir.

Təhsilin humanistləşdirilməsi ideyası müxtəlif ölkələrdə müxtəlif dövrlərdə həyata keçirilmişdir. Bu ideya Avropada XIV-XVI əsrlərdə formalaşmışdır. O dövrün mütəfəkkirləri sxolastik təlimin və sərt intizamın əleyhinə çıxmışlar. Hər bir təhsilalanın şəxsiyyətinə hörmət edilməsini, onda müstəqil düşüncənin, yaradıcılıq, təşəbbüskarlıq və fəallığın aşkarlanıb inkişaf etdirilməsi, nəzəri biliyin təcrübə ilə, əməklə əlaqələndirilməsini vurğulamışlar. Onlar tövsiyə edirdilər ki, təlim prosesində şagird çox danışmalı, müəllim isə dinləməlidir. Renesans dövrünün humanistlərinin diqqətini azadlıq, azadfikirlilik, müstəqil, fiziki və estetik cəhətdən inkişaf etmiş və dövlət və cəmiyyətə fayda vermiş insan tərbiyəsi cəlb edirdi. Hətta XVII əsrin böyük çex pedaqoqu Yan Amos Komenski məktəbi "Humanizm emalatxanası" adlandırırdı. Komenskiyə görə, əxlaqa və mənliyə təsir etməyən təhsil əhəmiyyətsiz təhsildir.

Y.A. Komenski "Humanizm emalatxanası" adlandırdığı məktəbin aşağıdakı vəzifələrini qeyd etmişdir.

- ailə tərbiyəsinə nisbətən məktəb tərbiyəsinin üstünlüyü;
- məktəbin irqindən, cinsindən, milliyyətindən, ictimai vəziyyətindən, dini etiqad və digər əlamətlətindən asılı olmayaraq bütün təhsilalanları əhatə etməsi;
- məktəbin "müdriklik emalatxanası" olması, öyrənənlərin orada elmlərin əsasına yiyələnməsi;
- məktəbin "insanlıq emalatxanası" və həqiqi bəşərilik emalatxanası olması, orada şagirdlərin mənəvi kamilliyə nail olması;
- məktəbin şagirdləri həyata hazırlaması və "işgüzarlıq emalatxanası" olması;
- məktəbin öyrənənlərə elmləri əsaslı öyrətməsi, təbiətən əqli cəhətdən geri qalan uşaqlara kömək göstərməsi, uşaqlar üçün ən sevimli yer olması. (3, s. 339)

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da müxtəlif dövrlərdə humanizm anlayışına xüsusi diqqət yetirilmişdir.

Hələ Azərbaycanda XII əsrdə Şeyx Nizami Gəncəvi humanist təhsilin böyük rolunu qeyd etmişdir. Dahi şair qeyd etmişdir ki, öyrənənlər məcburi təlimlə gün keçirməməli, yalnız lazım olan biliklərə yiyələnməli, qabiliyyətlərini inkişaf etdirmək üçün zəruri fənləri öyrənməli, bacarıq və vərdişlərə yiyələnməlidirlər. Nizami təhsilin məzmunundan savayı, müəllim ustalığından da söz açmışdır. O, təhsildə humanizmin baş komponenti kimi insanı - müəllimi, öyrədəni götürür və öyrədənin kamillik ideyasını irəli sürür. Şair kamil deyərkən humanizm və əməksevərlik, xeyirxahlıq, ağıllı şəkildə özünüidarə, dərin biliklilik, davranış və ünsiyyət mədəniyyəti kimi keyfiyyətlər nəzərdə tuturdu (1, s. 8).

Onu da vurğulamaq istərdim ki, Azərbaycanda humanist anlayışın elmi dövriyyəyə daxil edilməsində prof. Ə.Ə. Əlizadənin böyük rolu vardır. Onun fikrincə, "məktəb həyatının humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün ana xətti kimi özünü göstərir. İnsan amili ancaq bu yolla məktəb həyatına nüfuz edib önəmli pedaqoji məna kəsb edə bilər." (2, s.30)

Azərbaycan təhsil tarixi çətin və keşməkeşli həyat yolu keçmişdir. Azərbaycan müstəqillik qazandığı dövrdən başlayaraq təhsil sahəsi özünəməxsus şəkildə inkişaf yolu keçmiş və mühüm nailiyyətlər əldə etmişdir. Azərbaycanda humanist prinsipi əsas prioritet sayan, xalqımızın və dövlətimizin inkişafına xidmət edən, milli və bəşəri ideyaları özündə əks etdirən yeni bir təhsil sistemi formalaşmışdır. "Təhsil əsri" adını qazanmış XXI əsr Azərbaycan təhsilində də davamlılıq, insanlaşdırma, beynəlxalqlaşma, kompüterləşmə, humanitarlaşdırma kimi prin-

siplər əsas hesab edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafı üçün 2008-ci ilin 11 fevralında "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının dörd illik icrasının yekunları"na həsr olunmuş konfransda söylədiyi nitqini xüsusilə qeyd etmək lazımdır. "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir. Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. Ən inkişaf etmiş ölkənin təcrübəsinə baxsaq, görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır. Biz də bu yolu getməliyik və gedirik."

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda humanist dəyərlərə söykənən insan kapitalının inkişafı Azərbaycan təhsil sistemində əsas prioritet olduğunun bariz numunəsidir.

Yuxarıda qeyd etdiyim kimi, Azərbaycan müstəqillik qazandıqdan (1991) sonra "Humanistlik" anlayışı dövlətin təhsil sisteminin əsas prinsiplərindən birinə çevrilmişdir. Hətta "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda "humanistlik" anlayışı - milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün ümdə gələn vəzifələr kimi qəbul olunması" (7) kimi şərh olunur.

Bugünkü günümüzdə təhsilin məzmunu, mahiyyəti, prinsipləri, metodları, təşkili formaları, təhsilverənlərlə təhsilalanlar arasındakı münasibətlərin humanistləşdirilməsi Azərbaycan təhsil sisteminin əsas siyasətini təşkil edir.

Aparılan araşdırmalar və qəbul edilən sərəncamlara əsasən, ölkədə təhsilin inkişafı və keyfiyyətinin artırılması üçün Azərbaycan təhsil sisteminin humanistləşdirilməsi aşağıdakı məsələləri əhatə edir.

- Təhsilalanı azad, müstəqil təfəkkürə malik bir şəxsiyyət kimi formalaşdırmaq;
- onun maraq və qabiliyyətlərini, tələbat və ehtiyaclarını nəzərə almaq;
- insanın emosional vəziyyətini dinləmək və ona hörmətlə yanaşmaq;
- öyrənənin fərdiyyətinin, idrak problemlərinin, şəxsiyyətəməxsus keyfiyyətlərinin inkişaf etdirilməsi və bunun üçün əlverişli şərait yaradılması;
- ünsiyyət, davranış mədəniyyətinə yiyələnmək;
- qanunlara hörmət etmək;
- özünü və başqalarını dərk etmək;
- cəmiyyətdə və fəaliyyətdə öz yerini düzgün tapa bilmək ;
- təlim prosesində "öyrədən-öyrənən", "öyrənən-öyrənən", "öyrədən-valideyn" münasibətlərində humanizm və demokratik üslubun gözlənilməsi;
- təlimdə məcburiyyət, təhdidetmə, cəza vermə kimi ortamlara yol verməmək;
- humanist təhsildə təhsilalanları rəqabətə deyil, işbirliyinə, əməkdaşlığa təşviq etmək;
- müəllimin öyrənənlərin hər birinin fərdi xüsusiyyətlərini nəzərə alması;
- öyrədənin öyrənənlərin duyqusal və sosial bacarıqlarının inkişaf etdirilməsi üçün şərait yaratması;
- təhsilalanın özünü təsdiq etməsi üçün ona seçmə imkanı verilməsi;
- öyrənənlərin yaradıcılıq imkanlarının aşkar edilməsi və şərait yaradılması;

• Sinif ortamında rəqabətə deyil, əməkdaşlığa önəm verilməsi və.s.

Təhsilin inkişaf və səmərəsini artırmaq üçün təlim-tərbiyə prosesinin humanistləşdirilməsi gərəklidir. Pedaqoji ədəbiyyatlarda təlim prosesində humanist təhsilin 5 əsas prinsipi irəli sürülmüşdür.

1. Təhsilalanların öyrənmə istəklərini inkişaf etdirmək və onlara necə öyrənməyi öyrətmək;
2. Öyrənənlərə nəyi öyrənmək istədiklərini seçə bilmək üçün sərbəstlik vermək;
3. Şagirdlərin qiymətləndirilməsi şəxsi məmnuniyyət üçün deyil, təlim prosesində səmərəli və keyfiyyətli nəticə üçün çalışmağa təşviq etmək;
4. Humanist müəllimlərin şagirdlərdə həm idrakın, həm affektiv, həm də psixomotor inkişafın vacib olduğunu dərk etməsi;
5. Təlim prosesində təhsilalanlara təhlükəsiz, təhdidsiz, təhqirsiz və fiziki cəzalara yol verilməyən mühit yaratmaq.

Məlumdur ki, təlim-tərbiyə prosesində iki tərəf iştirak edir. Öyrədən və öyrənən. Humanist prinsiplər əsasında qurulan bu prosesdə öyrənən əsas iştirakçı, məsuliyyət daşıyan, öz "mənini" kəşf edən, özünü dəyərləndirməyi bacaran, fərqli fikirlər ortaya qoyan bir subyektir. Öyrədən isə motivasiya edən, həvəsləndirən, demokratik üsluba sahib, hər bir öyrənənin fərqli maraq və potensialının var olduğunu idrak edən bir rəhbərdir. Bu iki tərəf arasındakı münasibətlər əməkdaşlığa, işbirliğinə söykənəndə o zaman təlim-tərbiyə prosesində yuksək nəticə əldə etmək mümkündur.

Təlimin humanistləşdirilməsi, ilk növbədə, "şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsini, özünüreallaşdırması üçün əlverişli şəraitin yaradılmasını" (6, s. 49) da nəzərdə tutur.

Humanist təhsildən söz etmişkən müəllim əməyinin stimullaşdırılması da vacib məsələlərdən biridir. Öyrənənlərin bir şəxsiyyət kimi formalaşmasında, təlim-tərbiyə prosesində uğurlu nəticə əldə olunmasında, cəmiyyətin inkişafında müəllim əməyinin rolu inkaredilməz həqiqətdir. Təhsilin səmərə və keyfiyyətinin artırılması öğrədənlərin peşəkarlığından, navotorluğundan da asılıdır. Bu səbəbdən Azərbaycanda təhsilin inkişafı üçün müəllim əməyinin stimullaşdırılması, "Gələcəyin müəllimi" təqaüdünün təsis edilməsi, Azərbaycan gənclərinin müəllimlik fəaliyyətinə cəlb edilməsi və bir sıra digər təşəbbüslər Azərbaycanda humanist təhsilin əsas siyasətini təşkil edən məsələlərdən biridir. Azərbaycan Respublikasının Prezidenti 27 iyul 2020-ci ildə yeni Təhsil nazirini videoformatda qəbulu zamanı bu məsələyə məxsusi toxunaraq qeyd etmişdir ki, "Son illərdə Azərbaycanda müəllim peşəsinə ənənəvi hörməti bərpa etmək üçün çox böyük işlər görülüb. Dövlər xətti ilə həyata keçirilən xərclər bu sahədə xüsusi rol oynayır. 2015-2018-ci illərdə yeni yanaşma tətbiq olunmuşdur - müəllimlərin diaqnostik qiymətləndirilməsi keçirilmişdir. Bu diaqnostik qiymətləndirmədə uğurla keçmiş müəllimlərin əməkhaqları orta hesabla 2 dəfə artırılmışdır. Əlbəttə ki, bu, müəllimlər üçün əlavə bir stimul idi. Eyni zamanda, müəllim peşəsini seçənlərin də sayı buna uyğun şəkildə artdı və bu da məni çox sevindirir. Çünki bir neçə il bundan əvvəl müəllim olmaq istəyənlərin sayı kifayət qədər az idi. Ancaq son bir neçə ildə müəllim peşəsinə maraq artıb".

Azərbaycan təhsil sisteminin humanistləşdirilməsi təlim-tərbiyə prosesinin iştirakçılarının qarşısına tələblər qoydu. Azad düşüncəyə və hərtərəfli biliyə malik, məsuliyyət hissi və dünyagörüşü olan, soykökünə, milli dəyərlərinə bağlı olan, öz ölkəsini dünyaya ən yüksək səviyyədə təqdim etməyi bacaran şəxsiyyətlər yetişdirmək və s. Bu tələblər Azərbaycan təhsil sisteminin əsas siyasətini təşkil edir.

**Məqalənin aktuallığı.** Bugünkü günümüzdə dünya təhsil sisteminin mərkəzində insan po-

tensialının, daxili aləminin tədqiq və inkişaf etdirilməsi dayanır. İnsanın bir şəxsiyyət kimi inkişaf etməsi, özünü reallaşdırması və cəmiyyətdə təsdiq etməsi təhsilin əsas siyasətidir. Bu baxımdan təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsində insan rolunun artırılması ideyası vacib məsələlərdən biridir.

**Məqalənin elmi yeniliyi**. Təhsilin humanistləşdirilməsi ideyasının zəruriliyini və təhsildə keyfiyyətin əldə olunmasında onun rolunu aşkar etməkdir. Eyni zamanda Azərbaycan müstəqillik qazandıqdan sonra (1991) humanist təhsil siyasətinin ölkənin təhsil sisteminə təsirini və bunun üçün atılan addımları göstərməkdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** "Humanizm" sözünün mənşəyinin, onun təhsil sistemində rolunun və bununla bağlı Azərbaycanda aparılan humanist təhsil islahatlarının öyrənilməsində müəllimlər, tələbələr, pedaqoqlar, magistrantlar, doktorantlar faydalana bilərlər. Bu baxımdan məqalədən gənc tədqiqatçılar, pedaqoq və alimlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ağayev Ə., Hüseynli S. Təlim prosesi: Ənənə və Müasirlik, Bakı: Adiloğlu, 2006.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
3. İbrahimov F.N., Hüseynzadə R.L Pedaqogika: 2 cilddə dərslik. Bakı: Mütərcim, 2013.
4. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.
5. Rüstəmov F. Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm? // Azərbaycan məktəbi, 2017, № 5
6. Rüstəmov F. Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və Təhsil, 2016.
7. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. http://edu.gov.az/az/page/72/302.
8. Hüseynzade R. Öğretmen-öğrenci ilişkileri. Türkiye, Adana, 1997.
9. Maslow A. İnsan olmanın psikolojisi, Kuraldışı. İstanbul, 2019.
10. Maslow A. Motivation and Personality, second ed. Haper and Row Publishers Newyork. 1954.
11. Carl R. Rogers Yarının insanı, Okyanus. İstanbul, 2019.

**Н.Н. Алиева**

## Гуманистическая образовательная политика в повышени качества образования

## Резюме

В данной статье рассматривается роль гуманистического образования в повышении эффективности и качества образования, важность формирования учебного процесса и взаимоотношений учителя и ученика на основе принципов гуманизма. Между тем, рассматривается вопрос о проведенных реформах и требованиях, предъявляемых к системе образования в Азербайджане для развития гуманистического образования в стране со времени независимости Азербайджана.

**N.N. Alieva**

## Humanist educatioanal policy to improve the quality of education


### Summary

This article studies the role of humanistic education to increase efficiency and quality of education, the importance of forming the training process and teacher-learner relations based on the principles of humanism. Meanwhil, it is being considered the reforms implemented and the requirments put forward on the educational system in Azerbaijan for the development of humanistic education in the country since the independence of Azerbaijan.


**Redaksiyaya daxil olub:** 07.09.2020